1_Layout 1 30.03.2015 11:39 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 06 (448)

31 mart

2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## Ş.İ.Məmmədova general-leytenant hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı Şahin İsgəndər oğlu Məmmədova general-leytenant hərbi rütbəsi verilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 mart 2015-ci il.

## C.Q.Qurbanova "Əməkdar artist" fəxri adı verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda musiqi sənətinin inkişafındakı xidmətlərinə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında uzun müddət səmərəli fəaliyyət göstərdiyinə görə kapitan Cahangir Qafar oğlu Qurbanova "Əməkdar artist" fəxri adı verilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 mart 2015-ci il.

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 23-cü ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə:**

Ağayev Məzahir Telman oğlu - polkovnik

Hüseynov Nəsir Cavanşir oğlu - polkovnik

**"İgidliyə görə" medalı ilə:**

Bayramov Səxavət Allahverdi oğlu - əsgər (ölümündən sonra)

**"Hərbi xidmətlərə görə" medalı ilə:**

Dəmirov Rüstəm Nadir oğlu - polkovnik
İsmayılov Rasim Cəmil oğlu - polkovnik
Nəzərov Zahid Qulam oğlu - polkovnik
Ağayev Soltan Məmmədşah oğlu - polkovnik-leytenant
Baxşıyev Fərhad Tofiq oğlu - polkovnik-leytenant
Balayev Malik Beriya oğlu - tibb xidməti polkovnik-leytenantı
Cəfərov Asəf Gündüz oğlu - polkovnik-leytenant
Cəfərov İqbal Qiyas oğlu - polkovnik-leytenant
Heydərov Şəmsəddin Səftər oğlu - tibb xidməti polkovnik-leytenantı
Hüseynov Elbrus Feyzulla oğlu - polkovnik-leytenant
Mahmudov Elman Cahandar oğlu - polkovnik-leytenant
Məmmədov Akif İsmayıl oğlu - polkovnik-leytenant
Nağıyev Aydın Şahin oğlu - polkovnik-leytenant
Rüstəmov Faiq Səməndər oğlu - polkovnik-leytenant
Söhrabi Araz Abdulla oğlu - polkovnik-leytenant
Hüseynov Azər Təvəkkül oğlu - mayor
Mamedov Rəşadət Səfəralı oğlu - mayor
Məmmədov Elşən Tağı oğlu - mayor
Rəhimov Zeynal Əmirxan oğlu - mayor
Məstəliyev Nəsimi Aydın oğlu - kapitan
Quliyev Natiq Vəli oğlu - baş gizir
Qafurov Rüstəm Kasimoviç - gizir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 mart 2015-ci il.

# AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA YENİ MƏRHƏLƏ

## Trans-Anadolu qaz boru kəmərinin təməli qoyuldu




**Martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Trans-Anadolu qaz boru kəməri – TANAP-ın təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilib.**

**Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili mərasimdə iştirak ediblər.**

Əvvəlcə TANAP layihəsinə həsr olunmuş film nümayiş etdirildi. Filmdə qeyd olunur ki, TANAP Türkiyə və Azərbaycan qardaşlığının Anadoluya atılan imzasıdır. Azərbaycanın və Türkiyənin birgə səylərinin məhsulu olan bu layihə üzrə saziş 2012-ci ildə İstanbulda imzalanıb. Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa İttifaqında bir neçə kəmərlə əlaqələndirəcək. Beş il ərzində reallaşması nəzərdə tutulan layihə bir neçə mərhələdə həyata keçiriləcək və ilk mərhələ 2018-ci ildə başa çatacaq. 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək.

Mərasimdə Türkiyə, Azərbaycan və Gürcüstanın dövlət himnləri səsləndi.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev TANAP-ın həyata vəsiqə qazanmasının Azərbaycan və Türkiyə dövlət başçılarının səyləri nəticəsində mümkün olduğunu bildirdi, bu layihənin ölkələrimizin inkişafına və xalqlarımızın rifahına xidmət edəcəyini diqqətə çatdırdı.

"Bu gün burada ABŞ Prezidenti Barak Obamanı və dövlət katibi Con Kerrini təmsil etmək mənim üçün şərəfdir", - deyən Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hoxstayn bildirdi ki, ABŞ "Cənub" qaz dəhlizini 20 il bundan əvvəl başlayan Bakı-Tbilisi-Ceyhan boru xətti prosesinin tamamlanması kimi görür. TANAP layihəsinin həyata keçirilməsinin ABŞ hökuməti üçün çox önəmli olduğunu deyən A.Hoxstayn "Cənub" qaz dəhlizi layihəsinin icrası ilə bağlı Birləşmiş Ştatların dəstəyini ifadə etdi.

Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti Maroş Şefçoviç 2014-cü ildə Bakıda "Cənub" qaz dəhlizinin, 6 ay sonra isə Qarsda TANAP layihəsinin təməlinin qoyulmasını mühüm hadisə kimi dəyərləndirdi. "Cənub" qaz dəhlizinin əsas hissələrindən olan TANAP-ın reallaşmasına göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən M.Şefçoviç dedi ki, layihəyə böyük əhəmiyyət verən Avropa İttifaqı işlərin yüksək səviyyədə həyata keçirilməsi üçün bundan sonra da əlindən gələni edəcək.

Türkiyənin enerji və təbii sərvətlər naziri Taner Yıldız Avropa İttifaqı ölkələrinin təbii qaza ehtiyacının ödənilməsi istiqamətində mühüm layihə olan TANAP-ı "Cənub" qaz dəhlizinin əsas hissəsi adlandırdı. O, böyük siyasi əhəmiyyətə malik bu layihənin ölkələrimizdəki iqtisadi inkişafın təminatçısı olacağını dedi.

Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili "Cənub" qaz dəhlizinin ölkəsi üçün də çox önəmli olduğunu qeyd edərək, bu layihənin regionun inkişafında mühüm rol oynayacağını bildirdi. Gürcüstan dövlətinin başçısı TANAP layihəsinin Asiya ilə Avropa arasında enerji dəhlizi rolunu oynadığını, ticarət, turizm və digər layihələrin inkişafına xidmət edəcəyini, ölkələrimizin enerji təhlükəsizliyinin təmin olunmasına güclü dəstək verdiyini diqqətə çatdırdı.

Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bir daha Türkiyədə olmaqdan məmnunluğunu bildirdi, gələn ay Çanaqqala zəfərinin 100 illik yubileyində qardaş ölkəyə yenidən səfər edəcəyini söylədi. "Bu gün tarixi gündür və bu layihə, ilk növbədə, Türkiyə-Azərbaycan birliyinin layihəsidir", - deyən dövlətimizin başçısı ölkələrimizin bir-birinin uğurlarına hər zaman sevindiyini diqqətə çatdırdı. Bildirdi ki, 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin siyasi müdrikliyi və cəsarəti sayəsində reallaşan "Əsrin müqaviləsi" ilə başlanan enerji siyasəti nəticəsində ilk dəfə Xəzər dənizinə xarici neft şirkətləri gəldi. Xəzər neftinin ixrac olunması üçün inşa edilən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi bölgənin və qitənin enerji təhlükəsizliyində əvəzsiz rol oynadı. TANAP qaz kəmərinin də bu enerji dəhlizi üzrə inşa edildiyini deyən Prezident İlham Əliyev dünya miqyasında böyük qaz yataqlarından olan "Şahdəniz"in "Cənub" qaz dəhlizi üçün yeganə resurs mənbəyi olduğunu vurğuladı. Qısa vaxtda dünyada böyük dəstək qazanan TANAP, 2013-cü ildə "Cənub" qaz dəhlizinin tərkib hissəsi kimi seçilən TAP layihələri üzrə işlərin cədvəl üzrə gedəcəyinə əminliyini ifadə edən dövlətimizin başçısı "Cənub" qaz dəhlizini Avropanın ən böyük infrastruktur layihəsi kimi dəyərləndirdi. Bildirdi ki, Azərbaycanın malik olduğu nəhəng qaz ehtiyatları "Cənub" qaz dəhlizini təmin edəcək, bu layihə ölkələr arasında yeni əməkdaşlıq formatlarının yaranmasına səbəb olacaq.

Türkiyə, Azərbaycan və Gürcüstanın birgə təşəbbüsü ilə həyata keçirilən layihələrin hər zaman uğur qazandığını vurğulayan, bu layihənin də eyni taleyi yaşayacağına əminliyini bildirən Prezident İlham Əliyev Avropanın qaza olan tələbatının ödənilməsində Azərbaycanın mühüm rolunu vurğuladı, TANAP layihəsinin təməlinin Novruz bayramı ərəfəsində, ilaxır çərşənbə günündə qoyulmasının rəmzi məna daşıdığını dedi və layihəyə uğurlar arzuladı.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu layihənin sülhə və rifaha xidmət etməsini arzuladı. Dövlət başçısı "Şahdəniz" qazını Avropaya çatdıracaq bu kəmərin əhəmiyyətindən danışdı, onun ilk növbədə, ölkələrimizin və bölgə xalqlarının rifahına xidmət edəcəyini bildirdi. Nəzərdə tutduğu hədəflərin özəlliyi baxımından TANAP-ın alternativinin olmadığını deyən Rəcəb Tayyib Ərdoğan onun Avropa ilə Xəzər bölgəsi arasında güclü əlaqə yaradacağını, layihənin nəzərdə tutulduğu vaxtda istismara veriləcəyinə əmin olduğunu dedi.

Sonra TANAP boru kəmərinin təməli qoyuldu.

# 31 MART-AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ

***Azərbaycan müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edildi. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulan həqiqətlər açıldı, təhrif edilən hadisələr əsl qiymətini aldı. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Bununla da, Azərbaycan tarixində erməni məsələsinə münasibətdə yeni strategiya müəyyənləşdi. Bu, həm də Azərbaycan xalqının əsrlər boyu üzləşdiyi məhrumiyyətlərə rəhbəri Heydər Əliyev olan dövlətin verdiyi əsl tarixi qiymət idi.***

***Fərmanda göstərilir ki, Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırım siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə-1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Bu gün isə Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi, onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq, soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü ilə yerinə yetirməkdədir...***



Hələ XX əsrin əvvəllərində "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmiş, Bakıdan başlanan vəhşiliklər Azərbaycanın bir çox hissəsini və indiki Ermənistan ərazilərindəki azərbaycanlılar yaşayan məntəqələri əhatə etmişdir.

**Mart hadisələri zamanı azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və başqa bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilmişdir. Belə ki, Şamaxının Əngəsirxan kəndində 150 adam öldürülmüş, Navahı, Mehniman, Cəyirli kəndləri yandırılmış, dağıdılmış və dinc əhali silahdan keçirilmişdir. Qubanın yalnız bir kəndində 555 kişi, 260 qadın, 140 uşaq öldürülmüşdür. Zəngəzur qəzasının Buqudu kəndində 400 adam məscidə doldurulmuş, sonra yandırılmışdır. Zəngəzur qəzasında 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 1061 kişi, 799 qadın və 485 uşaq yandırılmışdır. Ümumilikdə isə öldürülənlərin sayı 12 min nəfərdən çox olmuşdur.**

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyası yaratmışdır. Komissiya bu soyqırımı araşdırmış, Xarici İşlər Nazirliyi nəzdində isə soyqırım həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün xüsusi qurum yaradılmışdı, 1919 və 1920-ci ilin mart ayının 31-i isə ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində, bu, azərbaycanlılara qarşı yürüdülən soyqırıma və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Zaqafqaziyanın sovetləşdirilməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan ərazisi elan etdilər. Sonrakı dövrlərdə isə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi (məcburi köçürülməsi) siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi deportasiyasına dövlət səviyyəsində nail oldular.

**31 mart - Azərbaycanlıların Soyqırımı Günü birmənalı olaraq, xalqımıza qarşı törədilən qanlı hadisələri tarixi yaddaşımıza əbədi həkk edən bir gün kimi xüsusi anılmalıdır.**

2_Layout 1 30.03.2015 11:42 Page 1





**Martın 18-də Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Azərbaycan Resublikası Prezidentinin Müdafiə Məsələləri üzrə Köməkçisi Xidmətinin baş məsləhətçisi general-mayor Rövşən Taptıqovu qəbul edib.**

Cənab nazir Daxili Qoşunların normativ-hüquqi bazasının və strukturunun təkmilləşdirilməsi istiqamətində onun fəaliyyətini yüksək qiymətləndirib və səlahiyyətləri daxilində göstərilən hərtərəfli köməkliyə görə təşəkkürünü bildirib. Bu xidmətlərinə görə, habelə Daxili Qoşunların yaranmasının 23-cü ildönümü münasibətilə general-mayor R.Taptıqova Daxili İşlər Nazirliyinin Fəxri Fərmanı təqdim olunub.

Dərin minnətdarlığını ifadə edən general-mayor R.Taptıqov DİN Daxili Qoşunlarla mövcud olan sıx münasibətlərin yalnız bir məqsədə - ölkədə sabitliyin, ictimai asayişin qorunub saxlanılmasına, ümumilikdə ordu quruculuğunun gücləndirilməsinə xidmət etdiyini deyərək, bundan sonra da xalqa, dövlət və Silahlı Qüvvələrin Ali Baş Komandanına sadiq olacağını bildirib.

# BİR SIRA MÜHÜM OBYEKTLƏRİN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının növbəti ildönümü ərəfəsində - martın 7-də bu qurumun Hacıqabul şəhərində yerləşən 12318 saylı hərbi hissəsində bir sıra mühüm xidməti obyektlərin açılış mərasimi keçirilib.***

***Tədbirdə respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov iştirak edib.***

Öncə mərasim iştirakçıları Ulu Öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edib, əziz xatirəsini yad edərək önünə tər çiçək dəstələri düzüblər.

Sonra hərbi hissənin ərazisində nazir müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov general-polkovnik Ramil Usubova hərbi qulluqçuların tədbirə hazır olması barədə raport verib. Nazir şəxsi heyəti salamlayıb, əlamətdar hadisələr münasibətilə onları təbrik edib.

Mərasim iştirakçıları hərbi hissənin xidməti - döyüş fəaliyyətini əks etdirən fotostendə baxıblar, daha sonra yeni istifadəyə verilmiş əsgər kazarması, tibb məntəqəsi, camaşırxana və digər məişət obyektləri ilə tanış olublar.

Nazir müavini-Daxili Qoşunların Komandanı general-mayor Ş.Məmmədov son illərdə Daxili Qoşunlarda, o cümlədən sözügedən hərbi hissədə həyata keçirilən abadlıq və quruculuq işləri barədə məlumat verib. Qeyd olunub ki, hərbi şəhərcikdə aparılan yenidənqurma işləri qısa müddət ərzində başa







çatdırılıb. Beşmərtəbəli 400 nəfərlik zirzəmili əsgər kazarması, hamam-camaşırxana kompleksi, tibb məntəqəsi, eləcə də sıra meydanı və digər obyektlər şəxsi heyətin istifadəsinə verilib.

General-mayor Şahin Məmmədov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin şəxsi heyətə göstərdiyi diqqət və qayğının nəticəsi olaraq, Vətənə, dövlətə, xalqa ləyaqətlə xidmət etmək üçün bu gün Daxili Qoşunların hərbi qulluqçularına hərtərəfli şəraitin yaradıldığını bildirib.

Komandan naziri əmin edib ki, şəxsi heyət bundan sonra da dövlət başçımızın yüksək diqqət və qayğısına fədakar xidmətilə cavab verəcək, müstəqilliyimizi və dövlətçiliyimizi qorumağa hər an hazır olacaqdır.

Daxili işlər naziri möhtərəm dövlət başçımızın rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin ictimai-siyasi, iqtisadi həyatında, ordu quruculuğunda böyük uğurlar qazanıldığını, daxili işlər orqanlarının maddi-texniki bazasının daha da möhkəmləndiyini, hərbi qulluqçuların sosial-məişət şəraitinin ilbəil yaxşılaşdığını qeyd edib.

Sonda cənab Ramil Usubov şəxsi heyətin fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Zati-aliləri cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və onu əmin edib ki, Daxili Qoşunların hərbi qulluqçuları qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaqdır.

Tədbirin sonunda əlamətdar hadisələr münasibətilə əsgərlərin, onların valideynlərinin və şəhər ictimaiyyəti nümayəndələrinin qarşısında Daxili Qoşunların Nümunəvi-göstərici hərbi orkestrinin geniş konsert proqramı keçirilib.

**DİN-in Mətbuat xidməti**

# DAXİLİ QOŞUNLARIN 23-cü İLDÖNÜMÜ TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD OLUNDU

**Şəxsi heyət qarşısında çıxış edən Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, şəxsi heyət qanunvericiliklə üzərinə düşən vəzifələri, bütün tapşırıq və göstərişləri bundan sonra da yüksək səviyyədə yerinə yetirəcək, Vətənə, xalqa, dövlətə və Prezidentə sədaqətli xidmətini əzmlə davam etdirəcəkdir.**

***Martın 12-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasının 23-cü ili tamam oldu. Bu münasibətlə həmin gün səhər Daxili Qoşunların komandanlığı və bir qrup hərbi qulluqçu Fəxri Xiyabanda Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə tər çiçək dəstələri düzülüb.***

Sonra Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsi yad edilib, "Əbədi məşəl" önünə əklil qoyulub. Torpaqlarımızın azadlığı uğrunda Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının qardaşlıq məzarına gül dəstələri düzülüb, Türk şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət olunub.

Daha sonra Daxili Qoşunların Baş İdarəsində bu qurumun yaranmasının növbəti ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib. Mərasimdə respublikanın Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov, Azərbaycan Respublikası Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi, Prezident Administrasiyası rəhbərinin müavini, general-leytenant Vahid Əliyev iştirak ediblər.

Əvvəlcə nazir müavini - Daxili Qoşunların Komandanı, general-leytenant Şahin Məmmədov general-polkovnik Ramil Usubova şəxsi heyətin mərasimə hazır olması barədə raport verib. Nazir şəxsi heyəti salamlayaraq, əlamətdar hadisə münasibətilə onları təbrik edib, Şərəf kitabına ürək sözlərini yazıb.

Sonra Daxili Qoşunların Döyüş Bayrağı təntənəli şəkildə salona gətirilib. Ulu Öndər Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda xidməti borclarını yerinə yetirərkən qəhrəmanlıqla həlak olmuş hərbi qulluqçuların və bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Daxili Qoşunların 23 il ərzində keçdiyi şanlı döyüş və xidmət yolu barədə məruzə ilə çıxış edən general-leytenant Şahin Məmmədov Ulu Öndər Heydər Əliyevin 1995-ci il martın 9-da imzaladığı fərmanla Azərbaycan Respublikası Daxili Qoşunlarının ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda erməni işğalçı-



larına qarşı döyüşə başladıqları günün - martın 12-nin Daxili Qoşunlar Günü elan olunduğunu xatırladıb.

Qeyd olunub ki, 1993-cü il noyabrın 2-də Heydər Əliyevin Vətənin ağır günlərində xalqa, Silahlı Qüvvələrin şəxsi heyətinə müraciəti böyük can-



lanma və ruh yüksəkliyi yaradıb. Bunun ilkin nəticəsi olaraq, Füzuli istiqamətində aparılan uğurlu döyüş əməliyyatları zamanı Daxili Qoşunların şəxsi heyəti əsl qəhrəmanlıq nümunələri göstərib. Ümumiyyətlə, döyüş əməliyyatlarında Daxili Qoşunların şəxsi heyətindən 510 nəfər həlak olub, 1166 nəfər yaralanıb, 268 nəfər isə itkin düşüb. Qarabağ savaşında iştirak etmiş hərbi qulluqçularımızdan 9 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Daxili Qoşunların Azərbaycan xalqına, dövlətinə və dövlətçiliyinə sədaqətlə xidmət etməsi, fədakarlığı Ümummilli Liderin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqətindən kənarda qalmayıb, bir çox hərbi qulluqçu dövlət mükafatlarına layiq görülüb.

Göstərilən ali diqqət və qayğının əyani təzahürüdür ki, Daxili Qoşunların yaranmasının növbəti ildönümü ilə əlaqədar möhtərəm Prezidentimiz tərəfindən imzalanmış müvafiq sərəncamlarla hərbi qulluqçulardan 1 nəfərinə "general-leytenant" ali hərbi rütbəsi verilib, 1 nəfər "İgidliyə görə" (ölümündən sonra), 2 nəfər "Vətən uğrunda", 22 nəfər "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib, 1 nəfər isə "Əməkdar artist" fəxri adına layiq görülüb.

General-leytenant Ş.Məmmədov Daxili Qoşunların həyatında yaddaqalan ən önəmli hadisələrdən biri kimi ötən il sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunların Qəbələ rayonunda yerləşən hərbi hissəsində inşa olunan yeni şəhərciyin açılışında iştirakını qeyd edib. Bildirilib ki, cənab Ali Baş Komandanın hərbi hissələrə hər bir gəlişi, sözün əsl mənasında, hərbi qulluqçularda vətənpərvərlik ruhunun, əzmkarlığın daha da yüksəlməsinə səbəb olur.

Məruzəçi deyib ki, səhra təcrübəsinin təkmilləşdirilməsi, hərbi qulluqçuların fərdi bacarıqlarının və birgə fəaliyyətlərinin, istənilən hava və coğrafi şəraitlərdə tapşırıqların yerinə yetirilməsinin prinsiplərinin müəyyən edilməsi, habelə, əməliyyatlar zamanı döyüş təminatının vaxtında təşkil edilməsi məqsədilə, Daxili Qoşunlarda xüsusi-taktiki hərbi təlimlər keçirilir, real əməliyyat şəraitinə uyğunlaşdırılmış bu tədbirlər hazırda da davam etdirilir. Ötən ilin iyun ayında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü münasibəti ilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili Qoşunların iştirakı ilə keçirilmiş irimiqyaslı birgə əməliyyat-taktiki təlimdə qarşıya qoyulan bütün məqsədlərə nail olunub, şəxsi heyətin peşəkarlığı Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirilib.

Sözügedən qurumun yüksək döyüş hazırlığına malik olduğunu deyən general-leytenant Ş.Məmmədov qeyd edib ki, bunun üçün əsas amillərdən olan maddi-texniki bazanın möhkəmləndirilməsi sahəsində geniş işlər aparılır, bütün hərbi hissələr müasir tipli silah və xüsusi vasitələr, döyüş sursatları, zəruri texnika və nəqliyyat vasitələri ilə təmin olunur. Nəzərə çatdırılıb ki, Daxili Qoşunların şəxsi heyəti cənab Ali Baş Komandanın bu ali diqqət və qayğısına fədakar xidməti ilə cavab verir.

**Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bayram münasibətilə təbriklərini və xoş arzularını şəxsi heyətə çatdırıb.**

Silahlı Qüvvələrimizin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olduğunu vurğulayan nazir Daxili Qoşunların şəxsi heyətinin ərazi bütövlüyümüz və suverenliyimizin, dövlətçiliyimizin, milli mənafelərimizin keşiyində hər zaman ayıq-sayıq dayandığını, ölkəmizdə daxili sabitliyin, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunmasında əsas qüvvələrdən biri olduğunu xüsusi qeyd edib.

Daxili Qoşunların qısa zamanda böyük inkişaf yolu keçdiyinə diqqət yetirən Ramil Usubov müstəqilliyimiz ilə yaşıd olan bu qurumun torpaqlarımızın qorunmasında fədakarlıq və qəhrəmanlıq nümunələri göstərdiyini, yüzlərlə şəhid verdiyini, Azərbaycan xalqına və dövlətinə xidmətin Daxili Qoşunların fəaliyyətində daim aparıcı istiqamət olduğunu bildirib.

Daxili Qoşunların yüksək peşəkarlığa və mənəvi-psixoloji hazırlığa malik mobil bir quruma çevrildiyini məmnunluqla vurğulayan nazir bunun təsadüfi olmadığını, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dəfələrlə Daxili Qoşunların hərbi hissələrində olmasının hər bir hərbi qulluqçunun döyüş əzminin daha da yüksəlməsinə böyük təkan verdiyini, dövlətimizin başçısının DİN Daxili Qoşunlarının təkmilləşməsinə daim xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb. Qeyd olunub ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərlərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təminini tələb edir.

Ötən müddətdə paytaxtda keçirilmiş beynəlxalq idman yarışları və digər kütləvi tədbirlərdə Daxili Qoşunların hərbi qulluqçularının polis əməkdaşları və digər hüquq-mühafizə orqanları ilə birlikdə ictimai təhlükəsizliyin təmini üzrə qarşıya qoyulmuş tapşırıqları uğurla icra etdiklərini xatırladan nazir bu ilin yayında ölkəmizdə keçiriləcək 1-ci Avropa Oyunları zamanı da şəxsi heyətin öz missiyasını layiqincə yerinə yetirməsi üçün bütün qüvvə və səylərini səfərbər edəcəyinə əminliyini bildirib.

Çıxışının sonunda general-polkovnik Ramil Usubov ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, şəxsi heyət qanunvericiliklə üzərinə düşən vəzifələri, bütün tapşırıq və göstərişləri bundan sonra da yüksək səviyyədə yerinə yetirəcək, Vətənə, xalqa, dövlətə və Prezidentə sədaqətli xidmətini əzmlə davam etdirəcəkdir.

Daha sonra Daxili Qoşunların yaranmasının növbəti ildönümü münasibətilə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin verdiyi sərəncamlar, həmçinin Daxili İşlər Nazirinin və nazir müavini-Daxili Qoşunlar Komandanının imzaladıqları əmrlər elan olunub. Xidmətdə fərqlənmiş bir qrup hərbi qulluqçuya dövlət təltifləri və yeni hərbi rütbələrin paqonları təqdim edilib.

Təntənəli mərasimin sonunda tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Zati-aliləri cənab İlham Əliyevə müraciət qəbul olunub.

**DİN-in Mətbuat xidməti**

3_Layout 1 30.03.2015 11:44 Page 1



# Daxili Qoşunlarımız: tarixi yola baxış...

***Hər bir dövlət üçün onun təhlükəsizliyinin təmin olunması strateji vəzifədir. Bu mürəkkəb vəzifənin yerinə yetirilməsi müvafiq güc strukturlarına həvalə edilir. Müxtəlif ölkələrdə təhlükəsizliyə cavabdeh bu qurumların statusu da fərqlidir.***

***Təhlillər göstərir ki, dövlət daxilində ictimai asayişin və təhlükəsizliyin qorunması üzrə tapşırıqların həcmi və mürəkkəbliyi, polis orqanları ilə yanaşı, xüsusi hərbi bölmələrin də prosesdə iştirakını zərurətə çevirir. Həmin hərbi bölmələrin çoxfunksional tapşırıqları daxili və xarici təhlükələrin dəf edilməsinə yönəlir.***

**Bir çox inkişaf etmiş ölkələrin təcrübəsində daxili təhlükəsizliyi qoruyan polis funksiyalı hərbi qurumlar xüsusi yer tutur. Məsələn, İtaliyada Karabinerlər, Türkiyədə Jandarma bu kimi təşkilatlardandır. Sözügedən qurumlara ölkələrinin iç güvənliyinin saxlanmasında geniş səlahiyyətlər verilib. İstər Karabinerlər, istərsə də Jandarma qurumlarının zəngin tarixi var.**

Azərbaycan Respublikasında ictimai təhlükəsizliyin qorunması funksiyasını yerinə yetirən Daxili İşlər Nazirliyi Daxili Qoşunları ilə yuxarıda qeyd olunan xarici ölkələrdəki müvafiq qurumlar arasında müəyyən paralellər aparmaq olar. Müqayisələr apardıqda oxşar funksiyalar az olmasa da, fərqli cəhətlər də çoxdur.

Azərbaycan DİN Daxili Qoşunlarının tarixini öyrənərkən Azərbaycan Demokratik Respublikası (ADR) və Sovet dövrünə dair faktların təhlil edilməsi vacibdir. ADR-in təşəkkül tapdığı bir dövrdə milli parlamentin qərarına əsasən, şəhərlərdə ictimai asayişi təmin etmək məqsədilə 1919-cu ilin 1 iyun tarixindən könüllü əsgərlər dəstələri yaradılıb. 1920-ci il martın 27-də isə ADR-in Dövlət Mühafizə Komitəsinin qərarı əsasında asayişi qoruyan yardım alayının könüllü dəstələri Daxili İşlər Nazirliyinin sərəncamına verilib. Yardım alayının ilk rəisi olmuş Yusif Ziya Talıbzadə milli istiqlal hərəkatının fəal iştirakçılarından biri idi.

SSRİ dövründə də dövlətdə ictimai təhlükəsizliyin qorunması məqsədilə hərbi statuslu xüsusi qurum formalaşdırılıb və Daxili Qoşunlar adlandırılıb. SSRİ-də DQ-nin xidməti fəaliyyətinin imkanları və miqyası kifayət qədər geniş olub. Həmin imkanları yaratmış maddi-texniki bazanın və kadr potensialının bir hissəsi sonrakı tarixi dövrdə MDB ölkələrinə miras qalıb.

SSRİ DİN Daxili Qoşunlarının sıralarında azərbaycanlı zabit, gizir, çavuş və əsgərlər də xidmət edib. Onların bir qisminin zəngin xidmət təcrübəsindən sonradan ölkəmizin ordu quruculuğu prosesində istifadə olunub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin tərkib hissəsi olan Daxili Qoşunlar 1991-ci ilin son aylarında yaradılmağa başlayıb. SSRİ DİN Daxili Qoşunlarının respublikamızın ərazisində dislokasiya olunmuş hərbi hissələri o vaxt respublikamızın sərəncamına keçib. Həmin vaxt bu hərbi hissələrin anbarlarındakı hərbi əmlak, silah-sursat, xüsusi vasitələrin ölkədən daşınmasının qarşısı alınıb.

1991-ci ilin dekabrında Azərbaycan DİN Daxili Qoşunların hərbi hissələrinin komplektləşdirilməsi üçün onun sıralarına ilk çağırış həyata keçirilib. 17.12.1991-ci il tarixdə çağırışçıların ilk qrupu hərbi hissələrə qəbul olunub.

1992-ci il fevralın 2-də Daxili Qoşunların əsgərlərinin ilk hərbi andiçmə mərasimi təşkil olunub. Həmin mərasimdə əsgərlər müstəqil Azərbaycan Respublikasının hərbi andını qəbul edib.

Əslində, Daxili Qoşunlar müstəqil dövlətimizin ilk nizami qoşun növü kimi ordu quruculuğunun başlanğıc mərhələsində xüsusi rol oynayıb.

Azərbaycan Daxili Qoşunları 1992-ci il martın 12-də Ağdam rayonunun Papravənd və Qalayçılar kəndləri ərazisində erməni işğalçılarına qarşı döyüşə başlayıb. Məhz bu tarix əsas götürülərək, vətənin müdafiəsində xidmətləri nəzərə alınaraq, həmin gün Daxili Qoşunların günü elan olunub.

Azərbaycan Respublikası Prezidenti tərəfindən bu barədə fərman 1995-ci il martın 9-da imzalanıb. Beləliklə, 1995-ci ildən başlayaraq Daxili Qoşunlar günü dövlət səviyyəsində qeyd olunur.

Daxili Qoşunların şəxsi heyəti Dağlıq Qarabağ, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Laçın və Cəbrayıl rayonları ərazisində şərəfli döyüş yolu keçib. Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə Daxili Qoşunların şəxsi heyətindən 510 nəfər şəhid olub, 1166 nəfər yaralanıb, 268 nəfər isə itkin düşüb.

Füzuli rayonunun Horadiz qəsəbəsinin (hazırda şəhər - Y.A.) və 12 kəndinin, o cümlədən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin düşmən tapdağından azad edilməsində Daxili Qoşunların şəxsi heyəti fədakarlıq göstərərək döyüş tapşırıqlarını uğurla yerinə yetirib.

Qarabağ müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının şücaəti müasir hərb tariximizdə şərəfli iz qoyub. 1992-ci ilin iyul ayında Ağdərənin Aterk kəndi uğrunda ağır döyüşdə 38 nəfər döyüşçü mühasirəyə düşərək son nəfəsinədək düşmənlə vuruşub. Azğın ermənilər onların meyitini yandırıb. Həmin ərazidə növbəti döyüşlər nəticəsində bu döyüşçülərin meyitinin qalıqlarını götürmək mümkün olub. Həmin qalıqlar Bakıdakı Şəhidlər Xiyabanında qardaşlıq məzarında dəfn edilib.

1993-cü ilin dekabr ayında Füzuli rayonunun Böyük Bəhmənli kəndi yaxınlığında mühüm müdafiə mövqeyində dayanan Şahin Abbasovun manqası düşmən tankının həmləsi qarşısında belə geri çəkilməyib. Manqanın igid döyüşçüləri düşmən tankı altında torpağa gömülərək şəhidlik zirvəsinə ucalıb.

Daxili Qoşunların döyüş yolunda belə nümunələr çoxdur. Bu nümunələrin təbliğ olunması hər zaman üçün aktualdır.

Zəngin döyüş təcrübəsinin olması Daxili Qoşunların bu gün üçün də döyüş qabiliyyətinin formalaşdırılmasında xüsusi rol oynayır.

**Yalçın Abbasov, DİN Daxili Qoşunların Veteranlar Şurasının üzvü**

**(davamı gələn sayımızda)**

**Daxili Qoşunlar Komandanının müavini-Şəxsi heyət üzrə İdarənin rəisi general-mayor Vidadi Əliyevin göstərişinə əsasən, Bahar bayramının gəlişi ilə əlaqədar olaraq, bu günlərdə şəxsi heyətlə ziyalıların görüşləri, bilik yarışları, özfəaliyyət kollektivlərinin konsertlərinin planlaşdırılması, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməklə bayram tonqallarının qalanması, hərbi qulluqçular üçün bayram naharlarının təşkil olunması yüksək səviyyədə həyata keçirilib. Göstərişdə torpaqlarımızın bütövlüyü uğrunda canından keçmiş şəhid hərbçilərimizin ailə üzvlərinin ziyarət olunması da xüsusi qeyd edilib.**

# BAYRAM SEVİNCLƏRİNİ ŞƏXSİ HEYƏTLƏ BÖLÜŞDÜLƏR

***"Novruz" Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən mədəniyyət hadisəsidir. Nəzər saldıqda, tarixi inkişaf boyunca Novruz bayramının qədim, mədəni köklərə, zəngin irsə və mənəvi qaynaqlara bağlı olduğunu görürük. Ümumiyyətlə, "Novruz" hərfi mənada yeni gün-yəni keçidin bitməsi, yeni nizamın başlanğıcı deməkdir.***

***Bahar bayramı artıq neçə illərdir ki, respublika miqyasında böyük təntənə ilə qeyd olunur. Daxili Qoşunların hərbi hissələrində də nəzərdə tutulmuş bayram günlərində şənliklər, mərasimlər yüksək coşqu ilə qeyd edilib.***

Ənənəvi bayramın keçirilməsi üçün Səbail rayon İcra Hakimiyyətinin nümayəndələri martın 16-da Daxili Qoşunların 16077, Nərimanov rayon İcra Hakimiyyətinin nümayəndələri isə martın 17-də 25031 saylı hərbi hissənin şəxsi heyəti ilə görüşərək, onlara səmimi bayram təbriklərini çatdırıblar.

İcra Hakimiyyətinin nümayəndələri tərəfindən hərbi hissələrin xidmətdə fərqlənən bir qrup hərbi qulluqçusu qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Bayram tədbirinin rəsmi hissəsi başa çatdıqdan sonra Respublikanın əməkdar incəsənət xadimlərinin iştirakı ilə maraqlı konsert proqramı təqdim olunub.

***Qeyd edək ki, bayram günlərində Respublika Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən hərbi hissələrimizdə (martın 17-si 67987 və 16077, 18-i 25031 və 25033, 19-u 16075 və 17074 saylı) şəxsi heyətlə hüquqi maarifləndirici söhbətlər aparılıb. Xüsusilə qeyd olunub ki, hər bir hərbi qulluqçu xidmət müddətində Azərbaycan Respublikasının Qanunlarının aliliyini rəhbər tutaraq, müvafiq nizamnamələrin tələblərinə ciddi riayət etməlidir. Hər kəs vəzifə borclarından irəli gələn məsuliyyəti şüurlu surətdə dərk edərsə, heç bir qanun pozuntusu qeydə alınmaz.***

Məlumat üçün qeyd edək ki, Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi orkestrinin kollektivi də bayram günlərində hərbi hissələrdə şəxsi heyət qarşısında rəngarəng musiqi nömrələri ilə çıxış edib.

Qoşunlarda bayram tədbirlərinin təmtəraqla keçirilməsi yalnız bir məqsədə, hərbi qulluqçuların mənəvi-psixoloji durumunun yüksəlməsinə xidmət edir.

**"Əsgər" qəzeti olaraq, biz də bütün dünya Azərbaycanlılarını, o cümlədən qoşunların şəxsi heyətini təbiətin oyanışı kimi qəbul edilən təravətli Baharın gəlişi münasibətilə ürəkdən təbrik edir, soydaşlarımıza sülh, əmin-amanlıq və qələbə sevincini yaşamağı arzu edirik. Yeni Baharın təravəti, bərəkəti bütün ailələrdə hiss olunsun...**

**gizir N.Rzayeva**

# Minnətdarlıq

**Hörmətli redaksiya!**

Qızım Zakirova Yağmur səhhəti ilə əlaqədar olaraq keçən ay Daxili Qoşunların Hərbi qospitalına müalicəyə qəbul olundu. Müalicə aldığı müddət ərzində qızıma xüsusi diqqət və qayğı göstərildi. Qospitalın tibb personalı qızımın sağlamlığına qovuşması üçün bütün qüvvəsini səfərbər etdi.

Övladımın müalicə olunmağında zəhməti olan bütün hərbi qulluqçulara, o cümlədən 12576 saylı hərbi hissənin qərargah rəisi polkovnik-leytenant Şəmsəddin Heydərova, Terapiya şöbəsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Əlican Hacıyevə, kapitan Lətifə İbrahimovaya və bütün tibb bacılarına dərin minnətdarlığımı bildirirəm. Xüsusilə uşağa ana qayğısı ilə yanaşdığına görə kapitan L.İbrahimovaya ailəmizin adından çox sağ olun, deyirəm.

Mən "Əsgər" qəzeti vasitəsilə Hərbi qospitalın rəhbərliyinə bu cür uğurlu fəaliyyətinə görə təşəkkür edirəm. Hərbi qospitalın fədakar kollektivinə fəaliyyətlərində uğurlar arzulayıram.

**16075 saylı hərbi hissənin YSM xidmətində kargüzar kiçik çavuş Samirə Zakirova**

*metodiki vəsait*

# SƏHRA ÇIXIŞININ TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ METODİKASI

*(əvvəli ötən sayımızda)*

**9.** İkinci zolaqda (orta xətlə arxa xətt arasında) hərbi hissənin qərargahı, tibb məntəqəsi və yeməkxanalar yerləşdirilir.

**10.** Üçüncü zolaqda (arxa xəttlə arxa yol arasında) ayaqyolular, anbarlar, emalatxanalar və başqa təsərrüfat tikintiləri yerləşdirilir.

**11.** Döyüş sursatı və partlayıcı maddələr anbarları düşərgədən kənarda yerləşdirilir.

**12.** Çadır yuvaları üç-üç, yaxud iki-iki olmaqla bölük sırasında yerləşdirilməlidirlər. Çadır yuvalarının ölçüsü 5x5 metrdir. Bir-birinə qonşu yuvaların yan tərəflərinin əsasları arasındakı məsafə önə görə 2,5 m, dərinliyə isə 5 metrdir.

**13.** Gizirlər, müddətindən artıq xidmət edən və müddətli həqiqi hərbi xidmət çavuşları öz bölmələri ilə yerləşdirilirlər.

**14.** Bölüyün başçavuşu üçün ayrı çadır ayrılır, burada həm də bölük dəftərxanası yerləşir.

**15.** Zabitlər ayrıca çadırlarda, yaxud binalarda yerləşdirilirlər. Taborlarda (dəstələrdə) tabor (dəstə) qərargahı üçün çadır ayrılır.

**16.** Tərbiyə işi üçün çadırlar bölüklərin arxa cərgə çadırları səviyyəsində qurulur, onlarla yanaşı bölüklərin ümumi iclasını aparmaq üçün sinif-meydançalar hazırlanır.

**17.** İkinci və üçüncü taborların (dəstələrin) arasında birinci səf çadırları xəttində bayraq dayağı qoyulur. İkinci səf çadırlar xəttində bayraq dayağının arxasında alay (briqada) növbətçisi və onun köməkçisinin çadırı qurulur. Qarovullar üçün çadırlar ikinci zolaqda qurulur.

**18.** Bölük çadırları arxasında birinci zolaqda silah saxlamaq üçün bina (çadır) yerləşir, onun yaxınlığında silahları təmizləmək üçün yer, onların arxasında isə əl-üz yuyanlar və su çuxurları hazırlanır.

**19.** Hər taborun sağ və sol cinahında ön xəttdə gün növbətçiləri üçün göbələkvari çətir qoyulur.

**20.** Parklar arxa xətlə arxa yollar arasında, düşərgənin cinahlarında, yaxud önün qarşısında hazırlanır. Parklar üçün sahənin yerini hərbi hissə komandiri təyin edir.

*Hərbi hissənin səhra şəraitində yerləşdirilməsinin sxemi*



| | | | |
|---|---|---|---|
| 1. | Bölmələrin çadırları | 9. | Əl-üz yuma yeri |
| 2. | Qərargah | 10. | Yağınsöndürmə lövhəsi |
| 3. | Tibb mənteqesi | 11. | Su çəni |
| 4. | Klub | 12. | Generator |
| 5. | Yeməkxana | 13. | Yanacaq çəni |
| 6. | Anbarlar | 14. | Tullantı üçün yer |
| 7. | Döyüş sursatı anbarı | 15. | Avtomobil parkı |
| 8. | Ayaqyolu | | |

**21.** Gimnastika şəhərcikləri və idman oyunları üçün meydançalar, bir qayda olaraq ön xəttin qarşısında hazırlanır.

**22.** Alay (briqada) klubu, bir qayda olaraq açıq sahəni və onun qabağında tamaşaçılar üçün yerləri və klub pavilyonlarını rahat yerləşdirməyə imkan verən yer sahəsində yerləşdirilir.

**23.** Ərazi xüsusiyyətlərindən asılı olaraq düşərgə salmada aşağıdakılara yol verilə bilər:

***a)*** *düşərgənin ön tərəfi düz xəttə yox, yer predmetlərinin yerləşməsinə uyğun ola bilər;*

***b)*** *bölmələr arasındakı məsafə artırıla, yaxud azadıla bilər;*

***c)*** *parklar düşərgə hüdudlarından kənarda yerləşdirilə bilər.*

Düşərgənin ərazisi ildırımötürən qurğularla təchiz edilir.

**Səhra çıxışının keyfiyyətli keçirilməsi üçün əsas yeri bölmələr yerləşdirilən ərazinin qurulması tutur. Səhra düşərgəsinin qurulmasına daxildir:**

**1.** Şəxsi heyətin yerləşməsi, gündəlik naryadlar, xidmətlər, zabitlər, qadın hərbi qulluqçular, tibb məntəqəsi, silahların saxlanılması üçün çadırlar. Çadırın girişində sağ tərəfdə çadırın nömrəsi və rəhbəri göstərilməklə yerdən 50 sm hündürlükdə lövhəcik quraşdırılır.

**Lövhəciyin ölçüləri:**

Eni-20 sm, hündürlüyü-15 sm, sarı rəngli, yazılar qara;

**2.** Yeməkxana;

**3.** Ərzaq anbarı, içməli su ehtiyatı, odunun yığılma və qab-qacaqların yuyulma yerləri;

**4.** Şəxsi heyətin yuyunma yeri, ayaqyolu;

**5.** Gün növbətçisinin xidmət aparması üçün yer.

Xidmət yerlərində xidməti sənədlər asılır;

**6.** Yanğınsöndürmə lövhələri (yaşayış çadırlarının yanında və avtoparkda yerləşdirilir);

**7.** Şəxsi heyətin düzlənmə, siqaret çəkmə və silahların təmizlənməsi yerləri;

**8.** İdman şəhərciyi;

**9.** Səhra parkı;

**10.** Səhra anbarı (sursatların saxlanması üçün müvəqqəti anbarlar).

***(davamı gələn sayımızda)***

# BİZİM ŞÜAR:
## “NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!”

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyəz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdi. **1922-1923-cü** illərdə “yoldaş” Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, **1929-cu ildə** Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, **1946-cı ildə** Mir Cəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, **1969-cu ildə** Vəli Axundov tərəfindən Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi, **1984-cü ildə** isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

**1988-ci ildə** Azərbaycanın ərazisi 86,6 min kv.km idi.

**1988-1993-cü illərdə** aşağıdakı ərazilər işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

## YIĞMA KOMANDAMIZ YARIŞDAN QALİB AYRILDI

**Fevralın 27-dən martın 1-dək Daxili İşlər orqan və hissələri arasında atıcılıq üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib. Daxili Qoşunlar yarışda 6 idmançı və 1 nümayəndə heyəti ilə təmsil olunub.**

Yarışın nəticələrinə əsasən, kişilər arasında “PM” markalı tapançadan PM-1 tapşırığı üzrə şəxsi birincilikdə 99713 saylı hərbi hissənin hərbi qulluqçusu leytenant Bəşirov Tamerlan Mirniyaz oğlu 2-ci yeri, qadınlar arasında 99713 saylı hərbi hissənin hərbi qulluqçusu baş əsgər Novruzova Günel Ramiddin qızı 3-cü yeri tutub.

AKM avtomatından tapşırıqlar üzrə isə 99713 saylı hərbi hissənin hərbi qulluqçusu çavuş Əliməmmədov Elşən Eldar oğlu 2-ci yerə layiq görülüb.

Daxili Qoşunların yığma komandası komanda birinciliyində 2-ci yerdə qərarlaşıb.

## BİRİNCİLİYİ 99713 SAYLI HƏRBİ HİSSƏ QAZANDI

“2015-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı”na və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, martın 14-dən 15-dək Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində qoşunların birinciliyi uğrunda sərbəst güləş üzrə yarış keçirilib. Yarışda Ali Hərbi Məktəb və hərbi hissələr üzrə 13 komanda, 91 nəfər hərbi qulluqçu iştirak edib.

## İDMAN

**Şəxsi birincilik uğrunda keçirilən yarışın nəticələri aşağıdakı kimi olub:**

**55 kq.**

**I yer** - əsgər Vüqar Ömərov (17072 saylı hərbi hissə)
**II yer** - kursant Elxan Rəhmanov (Ali Hərbi Məktəb)
**III yer** - əsgər Qafqaz Hüseynov (25033 saylı hərbi hissə)

**60 kq.**

**I yer** - baş çavuş Həsən Xəlilov (16077 saylı hərbi hissə)
**II yer** - əsgər Kazım Cumalıyev (12318 saylı hərbi hissə)
**III yer** - kursant Əli Ağayev (Ali Hərbi Məktəb)

**66 kq.**

**I yer** - baş çavuş Eldar Məmmədov (99713 saylı hərbi hissə)
**II yer** - leytenant Nadir Şərifov (12318 saylı hərbi hissə)
**III yer** - əsgər Orxan İsmayılov (16077 saylı hərbi hissə)

**74 kq.**

**I yer** - çavuş Məhəmməd Ağalarov (99713 saylı hərbi hissə)
**II yer** - əsgər Akşin Uluxanov (16073 saylı hərbi hissə)
**III yer** - leytenant Azər Mahmudov (16075 saylı hərbi hissə)

**84 kq.**

**I yer** - kiçik çavuş Mirəli Hüseynov (99713 saylı hərbi hissə)
**II yer** - əsgər Süleyman Mehdiyev (16075 saylı hərbi hissə)
**III yer** - leytenant Elçin Həmidov (17072 saylı hərbi hissə)

**96 kq.**

**I yer** - gizir Salman Musayev (99713 saylı hərbi hissə)
**II yer** - baş leytenant Seymur Rzayev (16076 saylı hərbi hissə)
**III yer** - çavuş İbrahim İmaməliyev (99713 saylı hərbi hissə)

**+120 kq.**

**I yer** - çavuş Orxan Əsgərov (17072 saylı hərbi hissə)
**II yer** - gizir Zəmanət Həsənzadə (16075 saylı hərbi hissə)
**III yer** - leytenant Rəvan Abışov (25033 saylı hərbi hissə)

Komanda birinciliyinə gəldikdə isə 99713 saylı hərbi hissə 29 xalla cədvələ başçılıq edir. 17072 saylı hərbi hissə 15 xalla 2-ci, 16077 saylı hərbi hissə 8 xalla 3-cü yeri tutub.

**Aktivində heç bir xalı olmayan 17074, 25031 və 67987 saylı hərbi hissələr son 3 yeri bölüşüblər.**

**“Əsgər”**

# MƏQSƏDİMİZ QAZANDIĞIMIZ NAİLİYYƏTİ BUNDAN SONRA DA QORUYUB SAXLAMAQDIR

***Nəzəri biliklərin keyfiyyətlə mənimsənilməsi qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində xüsusi əhəmiyyətə malikdir***



***Döyüş bayrağının, hərbi şəhərciyin etibarlı mühafizə və müdafiəsi hərbi hissənin komendant taqımının fəaliyyətinin əsasını təşkil edir. Məhz buna görə də bütün hərbi hissələrdə komendant taqımı xüsusi diqqət tələb edir.***

***16075 saylı hərbi hissədə də qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində, xidməti-döyüş fəaliyyətində, hərbi intizamın möhkəmləndirilməsində və ictimai-siyasi hazırlığında daim öndə olan taqımlardan biri komendant taqımıdır. Xidmətin düzgün təşkil olunması istiqamətində hansı tədbirlərin keçirildiyini bilmək üçün taqım komandiri leytenant Ruslan Qurbanovla söhbət etdik.***

O, 1987-ci il mayın 25-də Sumqayıt şəhərində dünyaya gəlib. Orta məktəbi bitirərək, 2004-cü ildə Texniki Universitetin Gəncə filialına qəbul olub. Əsgəri xidmətini Daxili Qoşunların 25033 saylı hərbi hissəsində keçdikdən sonra 16075 saylı hərbi hissədə həqiqi hərbi xidmətə qəbul olunub. Vətəninə, dövlətinə sədaqətlə xidmət edən gənc hərbçi xidmətinə çox ciddi yanaşdığını və şəxsi heyət arasında hərbi intizamın artırılması üçün əlindən gələni əsirgəmədiyini vurğuladı. Bildirdi ki, komendant taqımı müvafiq əmrlərin tələblərini rəhbər tutaraq, xidməti fəaliyyətini günün nizamına əsasən təşkil edir: “Komendant taqımının şəxsi heyəti gündəlik olaraq qarovul xidmətinə təyin olunur. Xidmət Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə uyğun aparılır. Hərbi qulluqçular xidmətə cəlb olunmamışdan öncə təlimatlandırılırlar. Saatdara üzərinə düşən vəzifələr izah olunur, postda olarkən daha ayıq-sayıq olması diqqətə çatdırılır”.

Taqımda yüksək nizam-intizamın hökm sürdüyünü deyən leytenant R.Qurbanov fiziki və atəş hazırlığının da daima diqqət mərkəzində saxlanıldığını söylədi. Çünki qarovul nəfərlərinin fiziki dözümlülüyü və sərrast atıcılıq qabiliyyəti qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində başlıca rol oynayır. İstənilən hava şəraitində xidmətin nümunəvi aparılması, hərbi qulluqçudan möhkəm iradə, dözümlülük və böyük məsuliyyət tələb edir. Qeyd etdiyimiz iradə, dözümlülük və digər müsbət keyfiyyətləri isə qarovul nəfərlərinin hər birində görmək olar.

Əslində, komendant taqımının başlıca vəzifəsi olan qarovul xidməti sülh vaxtı döyüş xidmətini yerinə yetirmək deməkdir. Döyüş xidmətinin yerinə yetirilməsində bir sıra keyfiyyətlərin, effektivliyin artırılması üçün şəxsi heyətin fiziki hazırlığı ilə yanaşı, həm də mənəvi-psixoloji durumunun da qənaətbəxş olması çox vacibdir. Məhz bu faktorları ciddi nəzarətə götürən leytenant R.Qurbanov şəxsi heyətlə daim vətənpərvərlik mövzusunda söhbətlərin aparıldığını dedi.

Həmçinin hər gün şəxsi heyətlə Daxili Qoşunların taktikası üzrə məşğələ, ayda bir dəfə isə taqımda iclas keçirilir. Ümumilikdə, ay ərzində fərqlənən hərbi qulluqçular hərbi hissə komandiri tərəfindən mükafatlandırılır.

Bütün bunlarla yanaşı, əsgərlərin asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif növ ədəbiyyatların mütaliə olunması, stolüstü oyunların oynanılması nəzərdən qaçmayan məsələlərdir.

Taqım komandiri leytenant R.Qurbanov hərbi xidmətin şərəfli və məsuliyyətli olduğunu qeyd edərək, öz fikirlərini bu cür şərh etdi: “Azərbaycan bayrağının dalğalandığı hər yerdə xidmət çox şərəflidir. Mən Daxili Qoşunların zabiti olduğum üçün fəxr edirəm və son olaraq bildirmək istəyirəm ki, bizə həvalə edilmiş obyektlərin etibarlı mühafizə və müdafiəsini nail olmaq başlıca məqsədimizdir. Şəxsi heyətə keçirilən bütün məşğələlərin və aparılan tərbiyə işinin əsasını da məhz bu prinsip təşkil edir. Keçən ilin xidməti döyüş fəaliyyətinin yekunlarına əsasən, əldə etdiyimiz müsbət nəticələr isə işimizi düzgün istiqamətdə qurmağımızın göstəricisidir. İndi başlıca hədəfimiz, qazandığımız nailiyyəti bundan sonra da qoruyub saxlamaqdır”.

**gizir N.Rzayeva**



# PEŞƏ VƏRDİŞLƏRİNİN, BİLİK VƏ BACARIQLARININ DAİMA ARTIRILMASINI ƏSAS ŞƏRT HESAB EDİRLƏR

***Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə edilən hərbi qulluqçularımızdan biri də 17074 saylı hərbi hissənin əməliyyat taborunda taqım komandiri leytenant Elnur Əliyevdir. Qısa müddət ərzində xidmət etməyinə baxmayaraq, çalışqanlığı və peşəkarlığı sayəsində şəxsi heyət arasında fərqlənməyi bacarıb.***

Leytenant E.Əliyev tabeçiliyində olan hərbi qulluqçuların əsl hərbçi kimi formalaşmasında üzərinə düşən məsuliyyəti dərindən dərk etdiyini və bu istiqamətdə səylə çalışdığını dedi.

Şəxsi heyətin hərbi biliklərə dərindən yiyələnməsini vacib amil hesab edən taqım komandiri nəzəri məşğələlərin son dərəcə keyfiyyətlə keçirildiyini bildirdi. Daxili Qoşunların taktikası ilə bağlı fənlərlə yanaşı, ictimai-siyasi hazırlıq məşğələlərinə də üstünlük verilir. Məşğələlər zamanı hərbi qulluqçularda vətənpərvərlik hissinin daha da gücləndirilməsi məqsədilə hərbi biliklərlə yanaşı, Azərbaycan hərb tarixinin məşhur sərkərdələri, onların yadelli işğalçılara qarşı göstərdikləri qəhrəmanlıq nümunələri, ordumuzun döyüşlərdə əldə etdiyi zəfərlər, habelə dövlətimizin bugünkü inkişafı və dünyada tutduğu mövqe barədə ətraflı məlumat verilir. Taqım komandiri əsgərlərin məşğələləri böyük həvəslə dinlədiyini diqqətə çatdırdı. Leytenant E.Əliyev nəzəri biliklərin aşılanması ilə yanaşı, hərbi qulluqçuların fiziki və atəş hazırlığının da ciddi nəzarətdə saxlanıldığını bildirdi. Qeyd etdi ki, şəxsi heyət məşğələ cədvəlinə əsasən, idman məşqlərinə, eləcə də praktiki atəş təlimlərinə cəlb olunur. O, nəzəri dərslərdə kifayət qədər bilik toplayan hərbi qulluqçuların praktiki təlimlər zamanı heç bir çətinlik çəkmədiyini vurğuladı. Əlavə etdi ki, bütün müsbət göstəricilərə baxmayaraq taqımda daimi yüksək döyüş hazırlığını qoruyub saxlanılması baxımından hələ çox işlər görülməlidir. O, bunun üçün ilk növbədə öz üzərində daima işləməyi, bilik və bacarığının, peşə vərdişlərinin artırılması istiqamətində çalışmağı əsas şərt hesab edir.

**baş leytenant T.Əlizadə**

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: leytenant X.Tağıyeva**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63, 590-65-21**

**Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**